


# “AİTF” nüfuzlu sərgilər sırasında:
## Təəssüratlar, təqdimatlar və nəticələr…

Bu il Bakıda 17-ci dəfə baş tutan “AİTF” beynəlxalq turizm və səyahətlər sərgisi ölkəmizin turizm potensialının tanıdılmasında hər zamanki kimi xüsusi rol oynadı.

**Öncə onu qeyd edək ki, aprelin 5-dən 7-dək Mədəniyyət və Turizm Nazirliyinin fəal dəstəyi ilə keçirilən “AİTF” sərgisinin təşkilatçısı “Iteca Caspian” və onun Böyük Britaniyalı tərəfdaşı “ITE Group” şirkətidir. Sərgi həmçinin bu tədbirdə daim iştirak edən Azərbaycan Turizm Assosiasiyası (“AZTA”) tərəfindən dəstəklənir. Ümumdünya Turizm Təşkilatı (“UNWTO”) və Asiya-Sakit Okean Turizm Assosiasiyası (“PATA”) da “AİTF” sərgisinə dəstək göstərən beynəlxalq təşkilatlar arasında yer alır.**

“AİTF” sərgisinin nüfuzunu artıran cəhətlərdən biri hər il buranı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın ziyarət etməsidir. Ənənə 2018-ci ildə də pozulmadı. Bu dəfə prezident və xanımı ilə bərabər Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da sərgiyə böyük maraq göstərdi.

* * *






**Sərginin açılışı maraqlı məqamlarla yadda qaldı. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev AİTF sərgisinin 17 ildir turizm sənayesi üzrə beynəlxalq görüş platformasına çevrildiyini bildirdi. Nazir öz nitqində ölkəmizdə turizm sənayesinin dinamik inkişafından, son illər bu istiqamətdə görülən işlərdən, dövlət başçısı tərəfindən qəbul olunan qərarlardan və əldə olunan nəticələri toplaşanlara xatırlatdı.**

Qeyd etdi ki, ötən il ölkəmizə gələn turistlərin sayında 20 faiz artım müşahidə edilib. 2018-ci ilin ilk üç ayında isə Azərbaycana gələn turistlərin sayında 12,5 faiz artım qeydə alınıb.

Budəfəki sərgini fərqləndirən hadisə tədbirdə Dünya Turizm Təşkilatının yeni seçilmiş baş katibi Zurab Pololikaşvilinin ilk dəfə iştirakı oldu. Yeni baş katib bildirdi ki, 2017-ci il Azərbaycan turizm sektorunun inkişafı üçün çox gözəl il olub: “Keçənilki artıma görə Azərbaycan hökumətini təbrik edirəm. Mən görürəm ki, sərgidə iştirak edən ölkələrin sayının artması Azərbaycana olan marağı daha bariz ifadə edir. Düşünürəm ki, bu sektorun inkişafı üçün qadınlara və gənclərə imkan yaradılması vacib məsələlərdən biridir. Yeni texnologiyaların tətbiqi bu sahənin daha da irəli getməsinə gətirib çıxaracaq. Beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycana daha çox turist cəlb edəcək və qonaqlar Bakının necə gözəl şəhər olduğunu öz gözləri ilə görəcəklər”.

Sərginin rəsmi açılış mərasimindən sonra biz də ekspozisiya sahəsinə ekskursiya edərək builki sərginin yenilikləri ilə tanış olduq.

## QARABAĞ STENDİ – SƏRGİNİN PRİORİTETİ

Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Turizm Assosiasiyası (AZTA) sərgidə ayrıca stendlə iştirak edirdi. AZTA-nın stendi həm ölkəmizdə, həm də xaricdə turizm üzrə geniş təklifləri əks etdirirdi. Sərgidə İsmayıllı, Lənkəran, Masallı, Şəki, Xaçmaz və Sumqayıt regional mədəniyyət və turizm idarələrinin stendləri qurulmuşdu. Qarabağın mədəni-tarixi irsi də burada ayrıca nümayiş olunurdu.

Artıq ikinci ildir ki, “ASAN Viza” - elektron viza portalı da sərgiyə öz stendi ilə qatılmışdı. Bu stend vasitəsilə Azərbaycanda elektron vizanın alınmasının bütün incəlikləri və üstünlüklərini öyrənmək mümkündür. Bakının tarixi mərkəzi olan qədim İçərişəhərdə turizmin inkişaf imkanları isə Nazirlər Kabineti nəzdində “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən nümayiş etdirilirdi.






## KASTAMONU, İZMİR VƏ BİR DƏ QARA DƏNİZ ŞƏHƏRLƏRİ...

Yerli turizm qurumlarımızın təqdimatları ilə qısa tanışlıqdan sonra qonaqlarımızın ekspozisiya sahəsinə baş çəkirik.

**"Qonşu qonşuya baxar, canını oda yaxar" prinsipi ilə öncə yaxın qonşularımız olan qardaş Türkiyə və Gürcüstanın stendlərinə yaxınlaşırıq. AİTF sərgisinin fəal iştirakçılarından olan Türkiyənin bu dəfə tədbirə 16 təşkilatı və xeyli sayda sənətçisi təşrif buyurmuşdu. Sərgidə TÜRKSOY tərəfindən 2018-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunan Kastamonu şəhəri və Qara dəniz şəhərləri önə çıxarılmışdı.**

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi isə builki sərgiyə yeni bir dizayn quruluşlu milli stendi, rəqəmsal yeniliklər, eləcə də sənət fəaliyyətləri ilə qatılmışdı. Osmanlı və müasir türk üslubunda xəttatlıq və ebru sənəti ustası Bekir Uslu, Türkiyənin məşhur təsbeh ustası Hüseyn Çelik, miniatürçü Müjgan İşler, Bursa ipək toxuması ustası və Uludağ Universitetinin müəllimi Sevgi Yüksel Uzunöz kimi usta və sənətçilər tədbirə xüsusi rəng qatırdılar.

Türkiyənin 8500 illik tarixə malik, Efes, Məryəm Ana kimi qədim məkanların ünvanı, Homerin vətəni, termal turizmin mərkəzi sayılan İzmir şəhərini sərgidə İzmir Şəhər Valiliyi təmsil edirdi. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə iştirak edən qurum İzmir şəhəri, bu tanınmış şəhərin mədəniyyəti, təbiəti, ticarət marşrutları və turizm məhsullarının təqdimatçısı idi.




İstanbul, Ankara və Bursadan sonra İzmir Türkiyənin inkişaf etmiş sənaye şəhəridir, habelə turizm və ticarət baxımından iqtisadi cəhətdən cəlbedicidir: "AİTF" sərgisində ikinci iştirakları oldu. Ötən il Azərbaycan Respublikasının Prezidenti zatialiləri İlham Əliyevlə görüş və Bakıdan İzmirə gedən sərfəli reyslərin açılmasının zəruriliyi haqda söhbət açdıq. Bu, turizmin daha da inkişaf etdirilməsi üzrə ümumi məqsədə xidmət edən, şəhərlərimizi birləşdirən körpü rolunu oynayacaq.

## "BİZİM ÜÇÜN "AİTF" SƏRGİSİNDƏ İŞTİRAK ÇOX VACİBDİR"

Gürcüstan da sərgiyə həm rəsmi, həm də özəl turizm qurumları səviyyəsində qatılmışdı. Bu ölkənin məşhur kurort məkanlarının və turizm mərkəzlərinin təqdim edildiyi stendə də marketinq üzrə onlar üçün "AİTF" sərgisində iştirakın çox vacib olduğunu: "Buna görə də hər il Bakıya gəlirik. Sərgi istirahət, yerli mentalitet və milli sərvətlərin üstünlüklərini əks etdirmək, eləcə də qastronomik maraqla yanaşı, işgüzar turizm perspektivlərini də genişləndirmək iqtidarındadır. Bu sərgi regionun ən mühüm tədbirlərindən biri olduğuna görə hesab edirik ki, çox geniş əlaqələr qura bilərik".

Dağıstan Respublikası Turizm və Milli Bədii Sənətlər Nazirliyinin nümayəndələri də yüksək təşkilatçılıq səviyyəsi sayəsində sərgidə təcrübə, informasiya mübadiləsi, ziyarətçilər və digər ölkələrin nümayəndələri ilə görüşlər üçün böyük imkanlar yaradıldığını dedilər Sərginin ilk iş günündən sonra qeyd edə bilərik ki, bizim təkliflər turoperatorlarla yanaşı, ayrı-ayrı şəxsləri də maraqlandırır.




Məşhur termal mərkəzləri ilə bütün dünyanın diqqət mərkəzində olan Çexiya Respublikasının "CzechTourism" şirkətinin direktoru Alena Kudilkova bildirdi ki, mükəmməl təşkil olunmuş "AİTF" sərgisi sayı və diapazonu daim artan iştirakçı və ziyarətçiləri ilə sənaye peşəkarlarının etibarlı görüş yerinə çevrilib. "CzechTourism" şirkəti "AİTF" sərgisinin daimi iştirakçısıdır: "Biz hər il öz işgüzar tərəfdaşlarımız, eləcə də müştərilərimizin müsbət rəylərindən həvəslənərək daha çox nəticə əldə etmək üçün bu tədbirə gəlirik".

***

Sərgidə yalnız turizm şirkətlərinin, agentliklərin deyil həm də bu sahəyə bütün qohum sahələrin stendləri var idi. Təbii ki, bunların arasında maraqlı nəşrlər xüsusi yer tuturdu. Misal olaraq Mədəniyyət Nazirliyinin təsisçisi olduğu "Mədəniyyət.AZ" jurnalı da ayrıca stenddə təmsil olunurdu.

Zöhrə Əliyeva, "Mədəniyyət.AZ" jurnalının baş redaktoru:

– "Mədəniyyət.AZ" jurnalı Azərbaycanda mədəni həyatın müxtəlifliyinə həsr olunub. Dərgidə Azərbaycan, rus və ingilis dillərində orijinal materiallar dərc edilir. Biz hər il bu nəşri "AİTF" sərgisi çərçivəsində öz stendimizdə təqdim edirik. Sərgi bütün fəaliyyət sahələri – turizm, incəsənət, mədəniyyət, KİV və digər sahələr üçün son dərəcə faydalıdır. Bizim üçün belə tədbirlər, sadəcə, bir tapıntıdır, çünki burada nəşrlərimiz üçün ilham ala və yeni mövzular tapa bilərik. Cəmiyyətlə, abunəçilər ilə əlaqəni itirməmək və zamanın nəbzini tutmaq üçün daim informasiya məkanında olmaq çox vacibdir.

Jurnalımız daim inkişaf edir, dərgimizin bütün oxucu kateqoriyaları üçün cəlbediciliyinə çalışırıq. Buna görə də sərgidə əsas vəzifəmiz turizm agentliklərinə, hotellərə və sərmayədarlara onların reklam məhsullarının effektiv şəkildə yayılması üzrə "Mədəniyyət.AZ" jurnalının geniş imkanlarını nümayiş etdirməkdir. Jurnal artıq populyardır, geniş abunə bazası, AMEA-nın və Mədəniyyət Nazirliyinin əməkdaşları da daxil olmaqla mötəbər oxucu auditoriyası var.



Həmçinin qeyd edim ki, "Mədəniyyət.AZ" jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərci üçün tövsiyə olunan elmi dövri nəşrlər siyahısı"na daxildir. Elmi dərəcə iddiasındakı hər kəs öz əsərlərini bizim dərgidə dərc etdirməyə maraqlıdır.

Müşahidələrimizə əsasən gəldiyimiz qənaət isə o oldu ki, doğrudan da, hər bir sərgi təmsil etdiyi sahənin inkişaf güzgüsüdür. "AİTF" də ildən-ilə özünə marağı və cəlbediciliyi artıraraq dünyanın nüfuzlu turizm sərgiləri sırasında yer almağa daha da yaxınlaşır. ❖

Fəxriyyə Abdullayeva,
Azər Əlihüseynov